## 2023 – "Heydər Əliyev İli"



# "Heydər Əliyevin sənə xüsusi tapşırığı var..."

## Mən Parisdə Əlimərdan bəy Topçubaşovun ailə üzvləri ilə görüşməli idim

**Müsahibimiz Həsən Əziz oğlu Həsənovla üçüncü söhbətimiz də 2023-cü ilin baş mövzusu – ümummilli lider Heydər Əliyev haqqındadır.**

**III söhbət**



**− Həsən müəllim, Heydər Əliyevin Azərbaycanın sovet dönəmində çalışan dövlət və ictimai-siyasi xadimlərinə münasibəti, onlar haqqında fikirləri necə idi?**

− Sovet dövrünün siyasi xadimlərindən ən çox xatırladığı və xatirəsini əziz tutduğu şəxs Nəriman Nərimanov idi. Bilirsiniz ki, Nəriman Nərimanov vəfat edənə qədər SSRİ rəhbərliyində ən yüksək dövlət vəzifəsində çalışıb. Bu səbəbdən də vəfat edəndə ona təntənəli vida mərasimi keçirib, çox hörmətlə Leninin mavzoleyinin yanında ən möhtəbər yerdə dəfn etdilər. Lakin, ölümündən bir neçə il sonra ona qarşı, rəsmən elan edilməsə də, repressiya başladı. Bütün İttifaqda və həmçinin Azərbaycanda onun xidmətlərinin təbliğinə və adının çəkilməsinə belə qadağa qoyuldu. Bundan belə nəticə çıxırdı ki, Nərimanov Bakıda, Tbilisidə və nəhayət Moskvada vəzifədə çalışarkən Stalin onunla bacarmadı, ancaq ölümündən sonra "mübarizə" aparmağa gücü çatdı.

1981-ci ilin yanvarında, mən Heydər Əliyevin elm, mədəniyyat, xarici əlaqələr üzrə müavini, Mərkəzi Komitənin ideoloji katibi vəzifəsinə təyin oundum. Nəriman Nərimsanovun 100-illik yubileyinin üstündən 10 ilə yaxın zaman keçmişdi. İlk iş günlərimin birində Heydər Əliyev mənə dedi: "Həsən sən yəqin Nəriman Nərimanovu tanıyırsan və onun taleyi haqda xəbərdarsan". Dedim: "Bəli". Qayğılı-qayğılı mənə baxıb davam etdi: "Amma bil ki, Nərimanov bəraət qazansa da, hələ bizim tərəfimizdən qayğıya ehtiyacı var".

Bundan sonra Heydər Əliyev mənə söylədi ki, Nərimanovun 100 illik yubileyini keçirərkən nə kimi çətinliklərlə rast gəldi. Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən bir neçə ay sonra Nəriman Nərimanovun 100 illik yubileyi tamam olurdu. 1956-cı ildə SSRİ-də ümumi reabilitasiya prossesi başlayanda Nəriman Nərimanov da bəraət almışdı. Heydər Əliyev bunu əsas götürərək göstəriş vermişdi ki, yubiley tədbirlərinə başlansın. Belə bir vaxtda gözlənilmədən Moskvadan göstəriş gəlir ki, Nəriman Nərimanovun yubileyi yazıçı, dramaturq və maarifpərvər ziyalı səviyyəsində keçirilməlidir. Heydər Əliyev isə haqlı olaraq təkid edirdi ki, Nərimanov Azərbaycan Sovet Respublikasının ilk rəhbəri, sonra Zaqafqaziya Federasiyasının hökümət başçısı, daha sonra Sovet İttifaqının rəsmi rəhbərlərindən biri olmuşdur və dövlət xadimidir.

Bunları əsas götürərək Heydər Əliyev Moskva qarşısında məsələ qaldırır ki, Nərimanovun yubileyi Sovet İttifaqının dövlət xadiminin yubileyi səviyyəsində qeyd edilməlidir. Lakin Kremlin mövqeyi gözlənildiyindən daha sərt idi. Heydər Əliyev məsələni birbaşa Baş katib Leonid İliç Brejnevin və Sov.İKP MK-nın katibi Suslovun müzakirəsinə çıxarır və geniş müzakirələr nəticəsində istəyinə nail olur.

Məhz bundan sonra Nəriman Nərimanovun 100 illik yubileyi dövlət xadiminin yubileyi səviyyəsində təntənəli şəkildə keçirildi, abidəsi ucaldıldı, ev muzeyi açıldı. Mən bu əhvalatı əvvəllər də müəyyən adamlardan eşitmişdim, amma indi Heydər Əliyevin müfəssəl danışığından bilmədiyim bir şox məsələlər də mənə agah oldu. 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə hətta Nəriman Nərimanovun Ulyanovskda abidəsi ucaldıldı. 2009-cu ildə Prezidentimiz İlham Əliyev Ulyanovsk şəhərində işgüzar səfərdə olarkən Nərimanovun abidəsini ziyarət etmişdi.

Söhbətimiz davam edirdi və birdən qayıtdı ki: "Həsən, sovet dönəmində bu xalqa azdan-çoxdan ürək yandıran Nəriman Nərimanov olub. Onun məktublarını oxumusan?" Dedim: "Yox". Dedi: "Mən Nəriman Nərimanovun dövlət xadimi kimi adının əbədiləşdirilməsi üçün Moskva ilə, sözün əsl mənasında, mübarizə apararkən, onun arxivi ilə ətraflı tanış oldum. Sən partiya arxivinə tapşır, onun bütün məktublarını gətirsinlər, hamısını oxu". Həqiqətən, o vaxta qədər mənim Nərimanovun həmin məktublarından xəbərim yox idi. Düşünürəm, tək mənim deyil, hətta alimlərimizin əksəriyyətinin onlardan xəbəri yox idi. Çünki bu məktublar məxfi fondda saxlanılırdılar. Dərhal tapşırıb axivdən həmin məktubları gətizdirib oxumağa başladım. Bir neçə gün sonra görüşəndə dedi: "Oxudun?" Dedim: "Bəli, oxudum". Dedi: "Görürsən, biz necə çətin və ağır yollardan keçmişik. Ona görə də tutduğumuz vəzifənin, xalqımızın, ölkəmizin qədrini bilməliyik və necə işləməli olduğumuzu dərk etməliyik".

Heydər Əliyevin Nəriman Nərimanovla bağlı mənimlə söhbətlərindən mən onun sovet hakimiyyətinə əsl münasibətindən xəbərdar oldum. Əslində, Nəriman Nərimanov Moskvaya, dövlət rəhbərlərinə ünvanladığı və sovet dövründə nəşri qadağan olunmuş həmin məktublarında sovet hakimiyyətinin Azərbaycana qarşı ədalətsiz siyasətindən yazırdı. Sovet dövrü tariximizdən Nərimanovun bir dövlət xadimi kimi adının silinməsi ilə, əslində, azərbaycanlıların o dövlətçilikdə hər hansı rolu inkar olunurdu.

Heydər Əliyev Nərimanovun adının əbədiləşdirilməsi uğrunda mübarizə apararkən, hansısa sovet siyasətçisinin mövqeyi ilə mübarizə aparmırdı. Heydər Əliyev əslində sovet hakimiyyətinin Azərbaycana qarşı ədalətsizliyinə qarşı, sovet sistemində Azərbaycan xalqının siyasi hüquqları uğrunda mübarizə aparırdı. Bu da o zamanlar hər oğulun hünəri deyildi. Əvvələr də bunları hiss edirdim, lakin ikimizin arasında olan söhbətlərdə bu mənə daha aydın olurdu. Bu söhbətlərdən sonra mən belə qənaətə gəldim ki, biz sovet siyasi qurumlarında çalışarkən öz milli maraqlarımızı müdafiə etməli və qorumalıyıq.

Nərimanovun qəribə taleyi olub. Moskva rəsmiləri və erməni havadarları təkid edirdilər ki, Nəriman Nərimanov millətçidir, kommunist ideyalarına zidd gedib. Əslində, Heydər Əliyev də bilirdi ki, həqiqətən, Nərimanov millətçi olub. Amma buna baxmayaraq, xalqımız və ölkəmiz qarşısında xidmətlərini həmçinin milli maraqlarımızı əsas tutaraq, onun adını əbədiləşdirir, tariximizdə yaşatmaq üçün var qücü ilə sübut edirdi ki, Nərimanov millətçi olmayıb.

**− Sovet dövründə Nəriman Nərimanovun, həqiqətən, müdafiyəyə ehtiyacı var idi. Bəs müstəqilik dövründə necə, ona münasibət dəyişdimi?**

− Heydər Əliyevin insanlara münasibəti siyasi mövqeyinə görə dəyişmirdi. Nərimanov çox faciəli həyat yaşamış bir şəxsiyyətdir. Əvvəldə qeyd etdiyim kimi, SSRİ dövründə onu ittiam edirdilər ki, sovet hakimiyyətinə zidd mövqedədir və millətçidir. Müstəqilliyimizi bərpa edəndən sonra isə müəyyən insanlar onu ittiham edirdilər ki, o, kommunist ideyalarını milli maraqlardan üstün tutub. Müstəqillik illərində Heydər Əliyevin iştirakı ilə keçirilən toplantıların birində kimsə Zəngəzurun Nərimanov tərəfindən ermənilərə verildiyi fikrini səsləndirdi. Ulu öndər ona cavab olaraq bildirdi ki, Zəngəzur Azərbaycan Kommunist partiyasının qərarı ilə ermənilərə verilib. Nərimanov orada çalışan 11 nəfərdən biri idi. Ona sadəcə çıxarılan qərarı bəyan etmək tapşırılmışdı. Sonda əlavə etdi ki, bu hadisədən bir neçə müddət sonra Nərimanov təkbaşına, Qarabağa aid ədalətsiz və qeyri-qanuni qərarı ləğv etdirdi. Bir gün də ikimizin arasında olan söhbətlərin birində dedi ki, Həsən, Nəriman Nərimanovun 125 illiyi yaxınlaşır. Sonra da onun yubileyinin qeyd edilməsilə bağlı öz təşəbbüsü ilə rəsmi qərar qəbul etdi. Təxminən bu ərəfədə xəbər tutdum ki, Rusiyanın yeni hakimiyyət rəhbərləri Leninin mavzoleyinin yanında olan qəbirlərin sökülməsi haqqında bəyanat veriblər. Dərhal Heydər Əliyevə məruzə etdim. Mənə tapşırdı ki, vəziyyəti nəzarətdə saxla, bəyanatı reallaşdırmaq istəsələr biz Nəriman Nərimanovun cənazəsini Bakıya gətirərik.

**– Nəriman Nərimanov ikinci, yəni Sovet Azərbaycanının dövlət xadimi idi, bəs Azərbaycan Xalq Cümhuriyyətinin xadimlərinə sovet dövründə Heydər Əliyevin münasbəti necə idi, hansı formadasa bu münasibət özünü göstərirdimi?**

– Ümumiyyətlə Heydər Əliyev Azərbaycan dəyərlərinə heç bir zaman biganə qalmayıb və daim onları ən yüksək səviyyədə qorumağa çalışıb. Mən onunla işləməyə başlayandan az bir müddət sonra bunu daha dərindən duymuşdum. Bununla bağlı çoxlu misallarım var...

1975-ci ilin əvvəli idi. Mən hələ Mərkəzi Komitənin aparanında tikinti şöbəsində müdir müavini işləyirdim. Bəzilərinə təəccüblü gəlsə də, Azərbaycan KP MK-nın xarici əlaqələr şöbəsi vardı və Azərbaycanın müəyyən xarici əlaqələrdə iştirak etmək səlahiyyəti də var idi. Bir gün Mərkəzi Komitənin xarici əlaqələr üzrə şöbə müdürü Ənvər Cəbrayılov mənə dedi ki, Fransa Kommunist Partiyası özlərinin mətbu orqanları olan "Humanite" qazetinin yubileyinə SSRİ-nin nümayəndə heyətini də dəvət edib. Moskvada qərar qəbul olunub ki, bu nümayəndə heyətini SSRİ adından Azərbaycan göndərsin. Bu məsələ Heydər Əliyevə məruzə olundu. O da belə qərar qəbul etmişdi ki, həmin nümayəndə heyətinə mən başçılıq edim. Mən təccübləndim və bunun səbəbini soruşdum ki, bəs mətbuat tədbirinə mən niyə? Dedilər ki, "bəli, mətbuatdan da nümayəndələr təklifimizdə var idi, lakin Heydər Əliyev məhz sənin namizədliyin üzərundə dəyandı. "Mən sakitcə dinləyirdim və təbii ki, artıq sual vemədən içimdə düşünürdüm: "Niyə mən?"

Səfərə getməyimizə bir neçə gün qalmış Ənvər Cəbrayılov mənə dedi: "Heydər Əliyevin sənə xüsusi tapşırığı var. Parisdə sən Əlimərdan bəy Topçubaşovun ailə üzvləri ilə görüşməlisən. Görüş zamanı onlara Heydər Əliyevin salamını çatdır. Sualları olsa, cavablandır. Sonda onlar sənə məktub verəcəklər. O məktub Heydər Əliyevə çatmalıdır. Bakıya gələn kimi onu verərsən mənə". Mən ondan soruşdum: "Bəs mən onları necə tapacam?" Dedi: "Mən SSRİ-nin Parisdəki səfiri ilə danışmışam, bu da onun telefonu. Parisə çatan kimi ona zəng elə. O maşın gondərəcək, gedərsən səfirliyə və orada Topçubaşovun ailə üzvləri ilə görüşəcəksən". Parisə çatan kimi, hər şey deyildiyi kimi oldu. Mən səfirliyə getdim. Səfir məni çox mehriban qarşıladı, Heydər Əliyevlə, Azərbaycandakı vəziyyətlə, mənim özümlə bağlı suallarına cavab verdim. Gəlişimin əsas məqsədini bildirəndə, dedi: "Bir az gözləməli olacaqsınız". "Bir az gözləmə" iki gün çəkdi və görüş baş tutmadı. Səfir mənə üstüörtülü səbəbini dedi. Sonra mən Bakıya qayıdanda Ənvər Cəbrayılov görüşün baş tutmamasının əsas səbəbini açıqladı. Dedi ki, Heydər Əliyev bu görüşü Moskva ilə rəsmi razılaşdırmamışdı. Görüşü Ənvər Cəbrayılov ancaq səfirlə razılaşdırmışdı. Səfir isə ancaq mən gələndə Moskvadan razılıq almaq istəsə də, buna nail olmadı.

Görüş baş tutmasa da, amma hadisənin böyük mahiyyəti var idi. Söylədiyim hadisənin əsl dəyəri odur ki, Heydər Əliyev Moskva ilə razılaşdırmadan, Azərbaycan Xalq Cümhuriyyətinin ən görkəmli xadimi, sağlığında Parisdən sovet hakimiyyətinə qarşı od püskürən Əlimərdan bəy Topçubaşovun ailəsi ilə əlaqə yaratmaq niyətinin olmasıdır. Belə addım atmağa, o zamanlar hər oğul cürət etməzdi...

**–Yəni belə söhbətlərdən sonra bildiniz ki, Heydər Əliyev kimdir və onun Azərbaycan üçün görmək istədiyi işlərin mayasında nə durur?**

– Heydər Əliyevin gördüyü işlərin mayası xalqımızın hər hansı dəyərli övladına qayğı göstərmək idi. İstər siyasətçi olsun, istər yaradıcı şəxs. Söylədiyim hadisənin üzərindən, təxminən, 2-3 il keçdi. Mən artıq Səbayıl rayon partiya komitəsinin birinci katibi işləyirdim. Hələ 1967–1969-cu illərdə mən Mirzə Fətəli Axundovun oğlu haqqında bir esse yazmışdım, amma nəşr etdirməmişdim. Çünki Heydər Əliyev partiya işçilərinin səlahiyyətlərindən kənar işlə məşqul olmağa icazə vermirdi. Bu esseni İmran Qasımov məndən alıb oxumuşdu və Heydər Əliyevlə söhbət zamanı ona bu barədə danışmışdı. Bir gün də Heydər Əliyev mənə zəng vurub dedi: "Eşitdim belə bir əsər yazmısan". Dedim: "Bəli, yazmışam". Dedi: "Axı sən mühəndissən, niyə bu sahəyə maraq göstərirsən?" Dedim: "Heydər Əliyeviç, mən Tiflisdə böyümüşəm və orada gürcülərin, ermənilərin öz tarixlərinə, mədəniyyətlərinə doğma münasibəti məndə bir qısqanclıq yaradıb. Mən də öz tariximizin, mənəvi dəyərlərimizin öyrənilməsinə hələ Tiflis dövründə maraq göstərmişəm". Sonra dedi ki, bəlkə heç özün yazmamısan? Dedim: "Yox, Heydər Əliyeviç, beş il bununla bağlı arxivdə işləmişəm". İnandı və dedi: "Çap elə. İlk dəfədir mən icazə verirəm ki, partiya işçisi müəllifi olduğu, ancaq partiyaya aid olmayan əsərini çap eləsin". Yəni Heydər Əliyev belə bir addım atdı. Bu sırf mənə olan münasibət deyildi. Sadəcə, Heydər Əliyevin özünün qanında və canında milli təəssübkeşlik, vətənpərvərlik var idi. O, xalqının tarixinə, mədəniyyətinə ciddi maraq göstərirdi, onları üzə çıxarmaq, xalqa çatdırmaq, dəyərlərimizi SSRİ çərçivəsində tanıtmaq üçün bütün imkanlardan cəsarətlə istifadə edirdi.

**– Əvvəldə qeyd etdiyiniz kimi, 1983-cü ildə Moskvanın göstərişi ilə sizi ideoloji sahədən uzaqlaşdıranda Heydər Əliyev artıq SSRİ-nin üç-dörd yüksək çinli rəhbər şəxsindən biri kimi çox böyük nüfuza malik idi. Onun bu məsələyə reaksiyası necə oldu?**

– Heydər Əliyev bunu biləndə çox soyuqqanlı münasibət göstərdi. O ki qaldı mən təyin olunduğum yeni sahəyə, ilk görüşümüzdə gülümsəyərək, dedi, öz sənətindir, bu sahədə təcrübən var. Bacararsan. O, gözəl başa düşürdü ki, bu, həm də onunla bağlı bir məsələdir. Çünki mənim ideoloji sahədən kənarlaşdırılmağım, onun Azərbaycanda yaratdığı, xalqa, respublikaya fayda gətirən mədəni-mənəvi mühitlə bağlı mübarizənin bir göstəricisi idi. Demək istəyirdilər ki, "biz kadrlardan başlayırıq, sonra bunu inkişaf etdirəcəyik". Ona görə də çox soyuqqanlı yanaşdı və mənə də dedi, buna görə heç narahat olma...

***P.S.*** **Həsən müəllimin müsahibəsində Heydər Əliyevin Əlimərdan bəy Topçubaşova olan doğma münasibəti mənə ulu öndərin Azərbaycan Prezidenti kimi 1993-cü ilin dekabrında Fransaya rəsmi səfərini xatırlatdı. Jurnalist kimi iştirak etdiyim həmin səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyev səfər protokolunun sıx olmasına baxmayaraq, bütün nümayəndə heyətini Əlimərdan bəy Topçubaşovun dəfn olunduğu Paris yaxınlığındakı Sen-Klo məzarlığına apardı və onunla bərabər hamımız Azərbaycan Cümhuriyyətinin görkəmli nümayəndəsinin məzarını böyük ehtiramla ziyarət etdik. Təbii ki, Həsən Həsənov xarici işlər naziri kimi bu səfərin əsas təşkilatçılarından olduğu üçün o da, bizimlə birlikdə idi. Səfərdən qayıdandan az müddət sonra Prezident Heydər Əliyev Əlimərdan bəy Topçubaşovun məzarının üzərində abidənin ucaldılması ilə bağlı dövlət vəsaitinin ayrılmasına sərəncam verdi. Bu onu göstərir ki, ulu öndər Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə sovet rejiminin həyata keçirməyə imkan vermədiyi planlarını müstəqil Azərbaycana rəhbərliyi dövründə daha yüksək səviyyədə reallaşdırdı.**

*Müsahibəni qələmə aldı*
*İlqar RÜSTƏMOV,*
*"Xalq qəzeti"*